# İŞĞALDAN AZAD EDİMİŞ ƏRAZİLƏRDƏ HEYVANDARLIĞIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Bəxtiyar Nəbiyev**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun Abşeron Heyvandarlıq Təcrübə Stansiyası, baxtiyar.nabiyev.1973@mail.ru*

İşğaldan azad edimiş ərazilərdə aqrar məşğulluğun təmin edilməsi məqsədilə ilkin olaraq 232,8 min hektar sahədə birillik və çoxillik əkinlərin aparılacağına, həmçinin 430 min baş iribuynuzlu, 1,6 milyon baş xırdabuynuzlu heyvanlardan ibarət təsərrüfatların qurulacağı nəzərdə tutulub. Aparılan kompleks tədbirlər işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının bütün sahələri üzrə ixtisaslaşdırılmanın planlı təşkilinə zəmin yaradır.

İşğaldan azad edilmiş ərazilərdə heyvandarlığın bərpa və inkişafını aşağıdakı istiqamətlər üzrə qruplaşdırmaq olar: 1. Kənd təsərrüfatı üçün yararlı torpaqların müəyyənləşdirilməsi, eləcə də torpaq və su resurslarından səmərəli istifadəsi olunmasına dair planlaşdırılmanın həyata keçirilməsi. 2. Heyvandarlıq təsərrüfatlarının müasir səviyyədə qurulması, fermaların innovativ texnoloji əsaslarla təşkil edilməsi. 3. Məhsul tədarükü və ticarəti üzrə logistika infrastrukturunun formalaşdırılması. 4. Aqro-emal istehsalat müəssisələri və Aqroparkların yaradılması. 5. Heyvan sağlamlığı zoobaytarlıq, aqrotexniki fumiqasiya xidmət mərkəzləri və təchizat bazalarının yaradılması. 6. Örüş-otlaq sahələrinin yaradılması və biotexnoloji üsullarla yem istehsalının təşkil ediməsi. 7. Heyvandarlığın inkişaf etdirilməsi üzrə mütəxəssislərin hazırlanması, HETİ-nun stansiya və dayaq məntəqələrin yaradılması.

İşğaldan azad edilmiş rayonlarda kimyəvi çirklənməyə məruz qalmış ərazilərdə torpaq və su resuslarının bərpası istiqamətləri müəyyən edilmişdir. Aparılan coxşaxəli tədbirlər sırasında heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması, seleksiya-damazlıq işlərinin təkmilləşdirilməsi mühüm vəzifələrdəndir. Azad edilmiş ərazilərdə yaradılacaq yeni məhsul tədarükü və loqistika müəssisələri ət, ət-süd məhsulların istehsalının genişləndirilməsinə şərait yaradacaqdır. Tədarük və logistika infrastrukturu ilə bərabər, bölgədə müvafiq aqro-emal və istehsal müəssisələrinin yaradılması mühim tədbirlərdəndir. Regionda heyvandarlıq məhsullarının sənaye emalı baxımından yun, gön-dəri, xəz-dəri və s. müəssisələrinin qurulması nəzərdə tutulub. Azad olunmuş ərazilərdə aqrar sahənin davamlı inkişaf perspektivləri nəzərə alınmaqla, yeni Aqroparkların yaradılması xüsusi əhəmiyyət kəsb edir. Yaradılacaq təsərrufatlarda epizootiya qaydalarına uyğun olaraq, heyvan sağlamlığı (baytarlıq-sanitariya) üzrə profilaktik-peyvəndləmə və laborator diaqnostik müayinə xidmətlərinin həyata keçirilməsi zəruri tədbirlərdəndir. Fumiqasiya mərkəzlərinin yaradılması ilə çoxillik yem bitkilərinin əkilməsi baxımından aqrotexniki xidmətlərin təşkili təxirəsalınmazdır. Heyvandarlığın reqionda bərpa edilməsi məqsədilə ilkin olaraq möhkəm yem bazasının formalaşdırılması əsas amillərdəndir. Təbii otlaqların elmi əsaslarla öyrənilməsi hesabına mədəni örüş-otlaq sahələrinin yaradılması, həmçinin torpaq-iqlim, su ehtiyatları və ekoloji faktorların tədqiqi gələcəkdə məhsuldarlığın artırılması baxımından önəmlidir. Ənənəvi mövsumi yemləmə ilə yanaşı, innovativ biotexnoloji üsullarla hazırlanmış hidroponik sistemlə yemləmədən istifadə edilməsi məqsədəuyğundur. Azad edilmiş ərazilərdə birillik dənli və paxlalı bitkilərlə yanaşı, coxillik yonca, amarant, soya, eləcə də susuzluğa davamlı ərazilərdə xarici ölkələrdən gətirilmiş bitkilərin (koturğa, raps, napier, sorqo və s.) əkilməsi zəngin yem bazasının formalaşmasına təkan verəcəkdir. Heyvandarlığın intensiv yetişdirilməsi, cins tərkibinin yaxsılaşdırılması məqsədilə seleksiya-genetika sahəsi üzrə zootexniki mütəxəssislərin cəlb olunması təxirəsalınmazdır.